

# Generalın ev-muzeyində

**Qəhrəmanın doğulduğu, boya-başa çatdığı ev artıq neçə ildir ki, onun adını daşıyan ev-muzey kimi məşhurdur. Bu muzey 1969-cu ildən fəaliyyət göstərir.**

Buradakı eksponatlar, foto şəkillər, albomlar, kitablar, qəzetlər və başqa sənədlər qəhrəmanın nəsillərə örnək olan həyat yolu barədə çox söz deyir. Məlumdur ki, Həzi Aslanov 1941-ci ildə Moskva ətrafındakı döyüşlərdə hərbi təşkilatçılığına və şəxsi bacarığına görə 31 yaşında polkovnik rütbəsi almış, göstərdiyi rəşadətə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Stalinqraddan Baltik sahillərinədək şərəfli döyüş yolu keçmiş Həzi Aslanov 1945-ci ildə Mitava (indiki Yelqava) şəhəri yaxınlığında qəhrəmancasına həlak olmuşdur.

Qəhrəmanın ev-muzeyində saxlanılan və qəlpələrdən dəlik-deşik olmuş köynəyinə həyəcansız baxmaq olmur. Muzeyin "Moskva, Stalinqrad uğrunda döyüşlərdə" bölməsində toplanmış sənədlər böyük maraq doğurur. "Pravda" qəzetinin 27 dekabr 1942-ci il tarixli "Qələbə çalmaq bacarığı" sərlövhəli baş məqaləsində Həzi Aslanov tanklarının Stalinqrad uğrunda göstərdikləri qəhrəmanlıqdan bəhs edilir.

Muzeyin direktoru Tamara Fətullayeva söhbət zamanı bildirdi ki, burada eksponatların sayı 2101-ə çatmışdır. Bu eksponatlara 42 il ərzində 1 milyona yaxın adam tamaşa etmişdir. Ev-muzeyində stol üstünə səliqə ilə düzülmüş kitablar arasında müxtəlif xalqların dilində Həzi Aslanov haqqında yazılmış poema, povest, roman, oçerk, hekayə, şeir, məqalələr vardır.

Mirzə İbrahimov, Əli Vəliyev, Hüseyn Abbaszadə, Mirvarid Dilbazi, yazıçılardan Məmmədhüseyn Əliyev, Şəkər Aslan, Hüseynbala Mirələmov, Camal Yusifzadə, Yaşar Rzayev, Əlisa Nicat, Həbib Səfərov və başqaları öz əsərlərini muzeyə hədiyyə vermişlər. Bölgədə yazıb-yaradan şair və nasirlərin qəhrəmana həsr etdiyi kitablar da ayrıca guşədə saxlanılır.

Ötən il qəhrəmanın anadan olmasının və Böyük qələbənin 65 illik yubileyi ilə əlaqədar generalın ev-muzeyi yenidən əsaslı təmir edilmişdir. Muzeyə Astara, Lerik, Masallı ,Yardımlı, Cəlilabad, eləcə də Biləsuvar, Salyan, Neftçala, Şirvan şəhər və rayonların məktəbliləri tez-tez gəlir.

**Hərbi xidmətə yola düşən lənkəranlı gənclər qəhrəmanın şəhərin mərkəzində ucaldılan əzəmətli abidəsinin önünə gəlir, doğma Vətəni onun kimi qoruyacaqlarına and içirlər.**

**A. ZÜLALOĞLU**